Childnet International

# Diqidakın Böyük Qərarı



***Lindsay Buck*** *tərəfindən yazılmışdır*
***Ciara Flood*** *tərəfindən təsvir edilmişdi*

© Copyright Childnet 2011 – 2012. Bütün hüquqlar qorunur.

İlk dəfə 2012-ci ildə Childnet International tərəfindən nəşr
Freestyle Print Ltd tərəfindən çap edilmişdir – www.freestyleprint.com.

Bu nəşr 2014-cü ildə nəşr olundu.

ISBN 978-0-9573506-3-2
Müəllif hüquqları sahibi Childnet-in əvvəlcədən yazılı icazəsi olmadan bu nəşrin heç bir hissəsi çoxaldıla, axtarış sistemində saxlanıla və ya hər hansı formada və ya hər hansı vasitə ilə, elektron, mexaniki, fotokopiya, səsyazma və ya başqa yolla ötürülə bilməz.

Lindsay Buck tərəfindən mətn, Childnet, 2012.

Ciara Flood 2012 tərəfindən dizayn və illüstrasiya. www.ciaraflood.co.uk
Ciara Flood-un bu işin illüstratoru kimi hüquqları 1988-ci il Müəllif Hüquqları, Dizaynlar və Patentlər Qanununa uyğun olaraq təsdiq edilmişdir.

Qapaq şriftindən istifadə etdiyinə görə fontdiner.com-a təşəkkür edirik.

Childnet International

# Diqidakın Böyük Qərarı



**Lindsay Buck**
*tərəfindən yazılmışdır*

**Ciara Flood**
*tərəfindən təsvir edilmişdi*

İsti bir yay axşamı
Digidak otağında idi.
Ev tapşırığını bitirmişdi
və yatmadan öncə
internetdə oynamaqdan
zövq alırdı.






Family Farmyard onun ən sevimli
vebsaytı idi. Oyun oynaya və dostları ilə
söhbət edə bilərdi. Möhtəşəm əyləncə!
Digidakın məktəbdən ən yaxşı dostları
da daxil olmaqla bir çox heyvan
Farmyardda oynamağı sevirdi.

Digidakın ekranına bildiriş səsi gəldi və bir dostundan yeni gələn mesajı gördü. "Necə də həyəcanlıdır!" o fikirləşdi. O mesajı açdı və gülümsədi.



Kimsə Proud.pigin həqiqətən çox axmaq göründüyü şəklini hazırlamışdı. "Bu çox gülməlidir!" Digidak güldü. "Dostlarıma göstərməliyəm."




Şəkili hər kəsə göndərməzdən əvvəl Ana Dak pilləkənlərdən yuxarı “Yatmaq vaxtıdır, əziz Dak! Dişlərini yu, yatağa gir və üzərini ört.Sabah üçün tez qalxacağam. "



Digidak yuxulu hiss edirdi, buna görə mübahisə etmədi, sabah Proud.pigin ziyafətinə görə yorulmaq istəmirdi. "Fotonu səhər göndərəcəyəm" deyə qərar verdi.

Tezliklə yuxuya getdi. Göy qaraldı və ulduzlar parladı. Eşidilənlərin hamısı cənab və xanım Dakın sakitləşdirici xorultuları idi.

Birdən otağı sirli bir parıltı bürüdü...

Parlaq bir parıltı və yüksək

Viiiiii

Tez Digidak yatağında tamamilə oyaq halda oturdu!



Böyük bir lələk topunun ekrandan sürətlə çıxıb yer boyunca yuvarlanmasını heyrətlə izlədi.



"Vay! Hər dəfə enişdə çətinlik çəkirəm" - lələk toplusu özünü düzəldib üstündəki tozu təmizləyərkən dedi.

Digidak başından quyruğuna qədər boz olan yaşlı bayquşa baxırdı. Bayquş eynəklərinin üstündən baxaraq silkələmək üçün qanadını uzadaraq dedi: "Müdrik bayquş".



"Mən səni tanıyıram!" – Digidak qışqırdı. "Sən Farmyard veb saytına rəhbərlik edirsən." Müdrik Bayquş gülümsədi və dedi: "Çox vacib bir iş üçün burdayam. Sən o fotoşəkili göndərməyi düşünürsən, ona görə də sənə bunu etsən nə baş verə biləcəyini göstərəcəyəm. "



Müdrik Bayquş-un nədən danışdığını soruşmağa vaxt yox idi!



O Digidakı sürətlə belinə mindirdi və boyunca, zamandan kənar, gələcəyə apardı.



Enişli-yoxuşlu uçuşdan sonra Utancaq Qoyunun kottecinin yanına endi. Digidak içəri baxdı və ən yaxın dostlarının bir araya gəldiyini gördü.

Kul.cou hamısının oynamaq istədiyi oyunu gətirmişdi.

"Niyə orada deyiləm?" - çaşqın halda Digidak soruşdu. "Həmişə birlikdə oynayırıq."
"Təəssüf ki, dəvət olunmamısan" Müdrik Bayquş dedi.

"Sən fotoşəkili göndərdikdən sonra Utancaq-Qoyun oyun meydançasında Proud.pigin ağladığını gördü. Xüsusilə də şəkil səndən gəldiyinə görə Proud.pig-in bu qədər qəmgin olduğunu görəndə çox kədərləndi. Sənin dost olduğun güman edilirdi."



"Bu sadəcə bir zarafat idi!" Digidak təəccüb içərisində dedi. Müdrik_Bayquş onu götürdü və uzaqlaşdılar.

Sonra bir tarla boyunca uçdular və bir tövlənin üstündə havada dayandılar. Bu Proud.pigin yığıncağı idi və DJ-Dog çıxış edirdi!



"Mən burda da yoxam" Digidak sezdi. "Qorxuram ki, Proud.pig fikrini dəyişib" Müdrik Bayquş dedi. "Məktəbdəki hər kəs onun şəklini gördükdən sonra ona adlar qoydu və DJ-Dog onu göndərdiyin üçün səninlə arası yaxşı deyildi."



"Ou," deyə Digidak pıçıldadı, "bu yığıncağı səbirsizliklə gözləyirdim." Müdrik_Bayquş başını yellədi və sürətlə getdilər. Son dayanacaq çox tanış görünürdü. "Bu mənim evimdir!" Digidak qışqırdı.





Pəncərədən Digidak özünün masada oturduğunu gördü. Qarşısında şam və rəngli bəzəkli dadlı bir tort vardı. Halbuki bütün digər stullar boş idi.

"Mənim doğum günümdür, bütün dostlarım haradadır?" – Digidak ağlayarkən göz yaşları yanağından süzülürdü.

Müdrik_Bayquş bilirdi ki, Digidakın gördükləri kifayətdir. Qanadlarını ətrafına bükdü və onlar vızıltıyla uçdular.



Zaman boyunca geriyə səyahət edərkən yazıq Digidak kədərli və çaşqın idi. Həqiqətən köməyə ehtiyacı var idi, buna görə Müdrik Bayquş hər şeyi izah etdi.

"Hər şey o fotoşəkili dostlarına göndərdiyin zaman başladı. Məktəbdə hamı bunu nahar vaxtına qədər görmüşdü. Proud.pig son dərəcə qəmgin idi. "

"Və bununla da bitmədi" deyə Müdrik Bayquş davam etdi. "Şəkli internetdə olduğu üçün insanlar uzun müddət Proud.pigə güldülər. Dostların da onları lağa qoya biləcəyindən çox narahat idilər."



Digidak birdən başa düşdü ki, fotoşəkili göndərsə, bu, qorxunc qarışıqlığa səbəb ola bilər. "Kiminsə fikir verəcəyini düşünməmişdim, sadəcə dostlarımı güldürmək istədim. Bəzən axmaq şeylər deyirik və edirik ... amma heç vaxt bədrəftar olmağı nəzərdə tutmuram" - o pıçıldadı.




Digidakın otağına geri qayıdanda Müdrik Bayquş yorğanı çəkərək ona sakitcə təsəlli verdi: "Bilirəm, amma təəssüf ki, dostların etmədi."



"Digidak," o məlahətlə dedi, "sən çox gözəl ördəksən və əla dostsan. İnternet əylənmək üçün gözəl bir yerdir, ancaq real dünyada olduğun kimi davranmaq lazımdır. Dostlarına xoş sözlər de və ağıllı seçimlər et. "

Və bununla da Müdrik Bayquş yoxa çıxdı. Günəş göydə qalxdı və Digidak oyandı. "Şəkil!" xatırladı.



Tələsik otaqda qaçdı və dünən gecə olduğu kimi mesaj hələ də orada idi. Digidak çox sevincli idi! Tullandı və mahnı oxudu: "Doğru şeyi edə bilərəm!"



"Amma nə etməliyik? Kimə deməliyik?” deyə Ana Dak soruşdu. "Family Farmyard veb saytına bildirməliyik!" Digidak sevinclə cavab verdi.



Ana Dak şəkli sildi və yenidən Müdrik Bayquşa geri göndərdilər. Digidak gülümsədi, Müdrik_Bayquş ondan çox məmnun olacaqdı.

Proud.pig-in məktəbdən sonrakı yığıncağı möhtəşəm idi və Digidak hər kəsin təsəvvür etdiyindən daha çox zövq alırdı. Kamerasını gətirdi və dostlarının da razılaşdığı möhtəşəm şəkillər çəkdi.



Digidak ona ikinci bir şans verildiyini bilirdi və internetdə başqalarının qayğısına qalmaq üçün əlindən gələni edəcəyinə söz verdi.



Dostlarıyla şəkillərini paylaşarkən, gələcəkdə birlikdə zövq alacaqları hər şeyi sevinclə gözləyirdi.

## Hekayə haqqında danışın




## Valideynlər və baxıcılar üçün

### Uşaqların onlayn təhlükəsizliyini təmin etmək

Uşaqlar texnologiyadan istifadə etməyi sevirlər və aşağı yaşlardan etibarən veb saytlarda, onlayn oyunlarda və konsollarda, iPad və smartfonlar kimi sensor ekran texnologiyasında idarəni öyrənirlər. Uşaqların bu mühitlərdə ilk andan etibarən İnternetdən ən yaxşı şəkildə istifadə etmək üçün dəstəyə ehtiyacı var.

### Haradan başlayım?

Ailənizi internetdə qorumağın və uşaqlarınızın internet istifadəsini başa düşməyin ən yaxşı yolu internetdən birlikdə istifadə etməkdir. Optimist olun və uşaqlarınızın istifadə etməkdən zövq aldığı texnologiyaları mənimsəyin və mövcud ola biləcək təhlükəsizlik xüsusiyyətlərinə diqqət yetirin.

### Hər hansı qaydalar qoymalıyammı?

Ailə müqaviləsi yaratmaq onlayn fəaliyyətlərlə bağlı gözləntilərinizi formalaşdırmaq üçün faydalı yoldur. Buraya internetdə keçirdiyiniz vaxt, ziyarət edilə biləcək saytlar və gözlənilən davranışlar aid ola bilər; Unutmayın ki, oflaynda nə doğru və nə yanlışdırsa onlaynda da eyni hal keçərlidir.

### Uşağıma necə nəzarət edə bilərəm?

Kompüterinizi evin çox istifadə edilən hissəsinə yerləşdirmək uşağınızın texnologiya istifadəsinə qoşulmanızı daha da asanlaşdıra bilər. Daşınabilən qurğular, məsələn, smartfonlar, iPod Touch, oyun konsolları və planşetlər də nəzarət altında saxlanıla bilər və onları görə bildiyiniz yerdə istifadə edilə

## Nə qədər vaxt həddindən artıqdır?

Vaxt məhdudiyyətlərini razılaşdırmaq və ya vaxt məhdudlaşdıran vasitələrdən istifadə etmək, internetdən istifadə etmək üçün həftəlik vaxt təyin etmək və ya yorğunluğun qarşısını almaq üçün gecə uşağınızın yataq otağından daşınabilən cihazları çıxarmaq kimi onlayn sərf olunan vaxtın idarə olunmasına kömək etmək üçün istifadə edilə biləcək bəzi strategiyalar var.

## Kömək edəcək vasitələr varmı?

İnternet xidməti provayderiniz və cib telefonu operatorunuz uşaqlar üçün yaşa uyğun olmayan məzmunun qarşısını almaq üçün pulsuz filtrlər təqdim edəcək. Cihaz istehsalçılarının veb saytları (məsələn, oyun konsolları) əlçatanlığınız olan idarəetmələri də təqdim edir. Valideyn nəzarəti böyük yardımdır, amma tam həll yolu deyil və övladlarınızın onlayn olaraq necə təhlükəsiz qalmağı başa düşməsinə kömək etmək üçün nəzarət və cəlbolunmayla birlikdə ən yaxşı şəkildə təsir göstərir.

## Uşağıma hansı məsləhəti verə bilərəm?

Təhsil bir uşağın sahib ola biləcəyi ən yaxşı vasitədir, buna görə də kiminsə və ya nəyinsə onları onlayn olaraq incitdiyini dərhal böyüklərə söyləməyin vacibliyini müzakirə edin. Arzuolunmaz məzmun və ya əlaqə ilə bağlı məsələləri həll etmək üçün digər təcili strategiyalara aid edilə bilər; ekranı söndürün, noutbuku bağlayın, veb saytdan çıxın və ya iPad və ya telefonu çevirərək yerinə qoyun. Uşağınızın digər internet istifadəçilərinin dedikləri kimi olmadıqlarını və internetdə "dostlar"ın hələ də yad olduğunu başa düşmələri vacibdir, buna görə də bütün şəxsi məlumatlar təhlükəsiz saxlanılmalıdır.

## Uşağımın oynaması üçün hansı oyunlar yaxşıdır?

Bir çox fərqli onlayn oyun və oyun təcrübələri var, məsələn. kompüterlər, konsollar, internet oyunları və tətbiqlər.
Uşağınızın onlayn həyatla qarşılaşmasının ilk yolu oyun ola bilər. Halbuki, bəzi oyunlar yaşlı auditoriya üçündür və uşaqlar üçün uyğun olmayan dil və ya şəkillərdən ibarətdir. Buna görə də, uşaqlarınızın oynadığı oyunların, oyunun məzmununa görə təyin olunan doğru yaş dərəcəsində olması vacibdir.
Oyunları özünüzün oynaması əyləncəli ola bilər və bu hal, eyni zamanda moderatora hesabat vermək kimi təmin edilən təhlükəsizlik xüsusiyyətlərini müəyyən etməyə və tətbiqdaxili reklamların göstərilib-göstərilmədiyini və ya satın almağa icazə verildiyini müəyyənləşdirməyə kömək edəcək. Parametrlərlə bir çox cihazda 'tətbiqdaxili' satınalmanı deaktiv edə bilərsiniz.

## Haraya hesabat verə bilərəm?

Hesabatlar təhlükəsizlik/yardım mərkəzləri və moderasiya xidmətləri vasitəsi ilə veb saytlara təqdim edilə bilər. Başqalarının onlayn davranışlarından şübhələnirsinizsə, CEOP-a hesabat verilə bilər. Eyni zamanda uyğun olmayan media məzmunuyla bağlı onlayn və oflayn olaraq Parentport vasitəsi ilə hesabat təqdim edilə bilər. İnternetdəki qeyri-qanuni məzmun İnternetə Nəzarət Təşkilatına da bildirilə bilər.

**Tam məsləhət üçün childnet.com/parents-and-carers saytına daxil olun.**

## Childnet (Uşaq şəbəkəsi)

Childnet International (Beynəlxalq Uşaq Şəbəkəsi) interneti uşaqlar və gənclər üçün böyük və təhlükəsiz bir yer halına gətirmək üçün dünyanın hər yerində əməkdaşlıq edən əsası Birləşmiş Krallıqda yerləşən xeyriyyə təşkilatıdır. 2011-ci yanvar ayından etibarən Childnet İngiltərənin Təhlükəsiz İnternet Mərkəzinin bir hissəsini təşkil edir və İngiltərə Uşaq İnternet Təhlükəsizliyi Şurasının (UKCCIS) həqiqi

Childnet uşaqlar və gənclər, valideynlər və baxıcılar, işləyənlər və istifadə etdikləri internet xidmətləri təminatçılarını əhatə edən bir çox auditoriya üçün təhsil, maarifləndirmə və siyasətə diqqət cəmləyir. Məktəblərdəki təhsil fəaliyyətimiz hər yaşda olan uşaqların interaktiv texnologiyalardan təhlükəsiz və məsuliyyətlə istifadə etmələrinə yönəlib.

Ətraflı məlumat və məsləhət üçün www.childnet.com saytına daxil olun.

## Birləşmiş Krallıq Təhlükəsiz İnternet Mərkəzi

Childnet International BK Təhlükəsiz İnternet Mərkəzində Təhsil üçün Cənub-Qərb Şəbəkəsi və İnternetə Nəzarət Təşkilatı ilə ortaqdır. Bu layihə Avropa İttifaqı tərəfindən Təhlükəsiz İnternet plus proqramı vasitəsilə maliyyələşdirilir.
Daha ətraflı məlumat üçün www.saferinternet.org.uk saytına daxil olun.



İRƏLİ
İCTİMAİ BİRLİYİ



Digidakın ekranına bildiriş səsi gəldi
və bir dostundan yeni bir mesaj
gördü. Necə də həyəcanlıdır!" o
fikirləşdi. O mesajı açdı və
gülümsədi.
Digidak üçün yardım çətin bir
qərarla üzləşən anda tam vaxtında
gəlir! Bu dostluq və məsuliyyət
hekayəsində Digidak və yoldaşlarını
onlayn izləyin.
www.childnet.com

Childnet International

UK Safer Internet Centre
www.saferinternet.org.uk

Co-funded by the European Union

ISBN 978-0-9573506-3-2